# “ANAMIN SƏSİ GƏLİR”

*Vaqif İsaqoğluna üç-4 kəlmə*

**Salam Vaqif! Mənə bağışladığın ”Anamın səsi gəlir” kitabını oxudum. Düzünü deyəcəm. Kitab mənim itçimi tərpətdi, ürəyimi göynətdi, xatirələrimi qanadlandırdı. Və bütün bunlar da 1980-ci ilin noyabrından tanıdığım tələbə yoldaşımın bütün həyatını gözümün önündə kino lentiə çevirdi. Hər şeyi gördüm, hər şey yaddaşımda təzələndi - sənin tələb şuxluğun da, hətta tavada qızartdığın Tovuz kartofu da.**

İndiki kimi yadımdadı. Bizim tələbəliyimizin ən güvəncli, ən dadlı, ən səmimi məqamı adımıza kənddən gələn pay idi. O paya ana əli toxunanda, anna nəfəsi hopanda həyatımız təzələnirdi  Mən indi sənin ”Anamın səsi gəlir” kitabının səhifələrini çevirdikcə həmin o istiliyi təkrar duyuram. Üstəlik, kitabın girişində yazdığın ”Anama məktub” ön sözün də mənim ruhumu oxşadı. Mənə elə gəldi ki, həqiqətən ay qaranlıq gecədə biz sizin həyətinizdə, kəndinizdə süfrə başında əyləşib ananın dəmlədiyi çayı içirik və sən anana şeir oxuyursan. Elə bir şeir ki, ürəyini sərgiləyir, ürəyini vərəqləyir. Deyirsən ki:

***Üşüdür canımı əsən küləklər,***
***Demə yaşa dolub, Vaqif qocalıb.***
***Saçım ağarsa da, baba olsam da,***
***Annalı hər günüm yadımda qalıb.***

Vaqif İsaqoğlu, sənin bu əl boyda kitabın əslində bəlkə də bütün yaradıcılığının ən ölçülü. Ən biçimli bir nümunəsidi. Çünki bu kitab həm sənin anana, həm də bütün analara ithafdı. Ona görə də mən bu kitabın ancaq işıqlı tərəflərini düşünürəm. Ancaq anının başımızın tacından da yuxarıda tutan nöqtələrini görürəm. Və elə həmin o istəklə də ananın ruhuna dua oxuyub sənə ”yorulmayasan” deyirəm. Və elə öz sözünlə  fikrimi tamamlayıram:

***Ürəkdə boy atan arzular idi,***
***Qəlbimdə çağlayan duyğular idi.***
***Dünyanın bir gözəl vaxtı var idi***
***Anam yerindəydi, atam yerində.***

Sənə və xanımına həmişə yerində olmaq arzusuyla:

**Əbülfət Mədətoğlu**